DOI https://doi.org/10.36719/2707-9317/117/143-155

# Analysis and evaluation of the sectorial and territorial employment structure of labor utilization in the industry of the Republic of Azerbaijan

**Nijat Muradli**
Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan
Doctoral student
https://orcid.org/0009-000903599-1880

**Abstract:** The article analyzes and summarizes official statistical data, analyzes and evaluates the changes in the number of employees working in the industrial production sector, gender composition, sectorial and territorial employment structure in the Republic of Azerbaijan during the period from the 70s-80s of the last century (1969-2023), especially during the years of independence (1991-2023), and the factors affecting them, and provides suggestions and recommendations for the effective use of labor in industry.

**Keywords:** Population, labor force, employment, unemployment, employed population, unemployed population, sectorial structure of employment, territorial structure of employment, gender composition of employees, investment, capital investment, skilled labor force, types of economic activity, innovation, innovative development.

# Azərbaycan Respublikası sənayesində iş qüvvəsindən istifadənin sahə və ərazi məşğulluq quruluşunun təhlili və qiymətləndirilməsi

**Nicat Muradlı**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
Doktorant
https://orcid.org/0009-000903599-1880

**Xülasə:** Məqalədə rəsmi statistik məlumatların təhlili və ümumiləşdirilməsi əsasında keçən əsrin 70-80-ci illərindən ötən dövr ərzində (1969-2023-cü illər), xüsusilə də müstəqillik illərində (1991-2023-cü illər) Azərbaycan Respublikasında sənaye istehsalı sahəsində muzdla çalışan işçilərin sayında, cins tərkibində, sahə və ərazi məşğulluq quruluşunda baş vermiş dəyişikliklər və onlara təsir edən amillər təhlil edilib qiymətləndirilmiş və sənayedə iş qüvvəsindən səmərəli istifadə edilməsinə dair təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** Əhali, iş qüvvəsi, məşğulluq, işsizlik, məşğul əhali, işsiz əhali, məşğulluğun sahə quruluşu, məşğulluğun ərazi quruluşu, muzdla çalışanların cins tərkibi, investisiya, kapital qoyuluşu, ixtisaslı iş qüvvəsi, iqtisadi fəaliyyət növləri, innovasiya, innovativ inkişaf.

## Giriş

Sənaye Azərbaycan Respublika iqtisadiyyatının ən mühüm və aparıcı maddi istehsal sahəsidir. 2023-cü ilin rəsmi statistik məlumatlarına əsasən respublika iqtisadiyyatında istehsal olunmuş 123005,5 milyon manatlıq Ümumi Daxili Məhsulun (ÜDM) 49759,2 milyon manatı və ya 40,4 faizi, muzdla çalışmış 1745,5 min nəfər işçinin isə 226,3 min nəfəri və ya 13,0 faizi sənayenin payına düşmüşdür[1]. Həmin ildə sənayedə muzdla çalışan işçilərin 14,7 faizinin çalışdığı mədənçıxarma sənayesi ölkə sənayesində istehsal olunmuş ÜDM-un 82,6 faizini; müvafiq surətdə muzdlu işçilərin 57,1faizinin çalışdığı emal sənayesi ÜDM-un 14,3 faizini; muzdlu işçilərin 12,8 faizinin çalışdığı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizi; ÜDM-un 2,6 faizini, muzdlu işçilərin 0,5 faizinin çalışdığı su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsi isə ÜDM-un 15,3 faizini vermişdir[2]. Buna görə də ölkə sənayesində və onun ayrı-ayrı sahələrində iş qüvvəsindən istifadənin vəziyyətini və ona təsir edən amillərin aşkara çıxarılıb təhlil edilib qiymətləndirilməsi və bu əsasda həmin iş qüvvəsindən səmərəli istifadə edilməsinə dair təklif və tövsiyələrin işlənib hazırlanması mühüm aktuallıq kəsb edir.

## Azərbaycan Respublika sənayesində iş qüvvəsindən istifadənin təhlili və qiymətləndirilməsi

Sənaye-Azərbaycan Respublikası iqtisadiyyatının aparıcı maddi istehsal sahələrindən biridir. Burada muzdla çalışanların sayı, onun sahə və ərazi məşğulluq quruluşu sabit kəmiyyət olmayıb ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən dəyişikliklərdən asılı olaraq daim dəyişib təkmilləşir. Məsələ burasındadır ki; Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində olduğu uzun illər ərzində burada sənayenin inkişafı başqa sahələrdə olduğu kimi respublikamızın milli maraqlarına deyil; keçmiş İttifaqın maraqlarına xidmət etmiş və onun inkişafı birtərəfli qaydada, yəni neft sənayesi və onunla bağlı sahələrin inkişafına üstünlük verilməklə həyata keçirilmişdir. Sovet hakimiyyəti illərində, xüsusilə də sənayeləşdirmə dövründə respublikamızdan xaricə ixrac edilən neftindən əldə olunan vəsait ölkəmiz üçün yeni texnika və texnologiyaların alınmasına deyil, keçmiş SSRİ-nin sənayeləşdirməsi layihələrinin həyata keçirilməsinə yönəldilirdi. Başqa sözlə desək yüksək gəlir verən neft sənayemizdən əldə olunan iri həcmli mənfəətin istifadəçisinin əsas sərəncam verəni Azərbaycan hökuməti deyil, keçmiş SSRİ hökuməti idi. Bir sözlə SSRİ vaxtı Azərbaycan xalqı öz

[1] Əmək bazarı. Statistik məcmuə, Bakı, 2024, səh. 28., Azərbaycan Milli Hesabları. Statistik məcmuə. Bakı, 2024, səh. 34.
[2] Yenə orada.

sərvətinin nəticəsindən ölkəmizin sosial-iqtisadi problemlərinin həlli üçün istədiyi kimi istifadə etmək səlahiyyətlərinə malik olmamışdır[3]. Ancaq bütün bunlara baxmayaraq keçən əsrin 50-60-cı illərində respublikamızın sənayesinin inkişafı, onun sahə və ərazi quruluşunun təkmilləşdirilməsi sahəsində xeyli müsbət dəyişikliklər baş vermişdir. **Belə ki, həmin illərdə respublikamızın sənaye sahəsinin inkişafında mühüm rol oynamış Sumqayıt boruyığma, alüminim və sintetik-kauçuk zavodları; Gəncə alüminium zavodu; Daşkəsən filiz saflaşma kombinatı, Mingəçevir su-elektrik stansiyası və s. iri sənaye müəssisələri tikilib istifadəyə verilmişdir.** Bunların əsasında respublikamızda ağır sənayenin, energetika, kimya və neft-kimya, neft emalı, qara və əlvan metallurgiya, cihazqayırma, elektrotexnika və sair sənaye sahələrinin geniş surətdə inkişaf etdirilməsinin əsası qoyulmuşdur[4]. Bununla belə keçən əsrin 60-cı illərinin axırında respublikanın başqa iqtisadiyyat sahələrində olduğu kimi sənaye sahəsinin inkişafinda da bir sıra çatışmazlıqlar və mənfi meyllər aşkara çıxmağa başlamışdır. Nəticədə, 1960-cı ildə respublikamızda adambaşına düşən məcmu ictimai məhsul istehsalının həcmi orta ittifaq səviyyəsinin 75,8; milli gəlir istehsalının 74,0; sənaye məhsulu istehsalının 75,8; kənd təsərrüfatı məhsulu istehsalının 68,7 faizini təşkil etmişlər. Bu göstəricilərin həcmi daha da azalaraq 1970-cı ildə müvafiq surətdə 53,3; 51,0; 56,3; 47,7 faizə düşmüşdür[5]. Bütün bunlar onu göstərir ki, keçən əsrin 60-cı illərinin axırlarında bütünlükdə respublika iqtisadiyyatı, o cümlədən onun aparıcı sahəsi olan sənaye sahəsi durğunluq dövrünə qədəm qoymuşdur. Buna görə də bütünlükdə ölkə iqtisadiyyatının, o cümlədən də sənayenin surətli inkişafını və səmərəliliyinin yüksəldilməsi, onun sahə və ərazi quruluşunun təkmilləşdirilməsini tələb edirdi. **Bu çətin və mürəkkəb vəzifələrin yerinə yetirilməsi vəzifəsi isə 1969-cu ilin iyul ayında Azərbaycanın rəhbərliyinə gətirilmiş Ulu öndərimiz Heydər Əliyevin üzərinə düşdü.** Ulu öndərin cəsarəti və həyata keçirdiyi elmi əsaslara söykənən iqtisadi siyasəti nəticəsində keçən əsrin 70-ci illərində **ilk dəfə olaraq respublikamızın hərtərəfli və uzunmüddətli inkişaf strategiyası işlənib hazırlandı və həyata keçirildi.** Ulu öndərimiz Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etdiyi illərdə (1969-1982-ci illər) respublikamızda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 142,6 faiz artaraq 735-dən 1048-ə; həmin müəssisələrdə istehsal olunmuş məhsulların həcmi (işlərin və xidmətlərin dəyəri) təqribən 3 dəfə (296,7 faiz) artaraq faktiki qiymətlərlə 407,0 milyon manatdan 1207,7 milyon manata çatmışdır[6]. Bu illər ərzində respublikamızda sənayenin ən mütərəqqi sahələrinin, ilk növbədə isə **maşınqayırma, kimya və neft kimya, əlvan metallurgiya, neft və qaz hasil edən, neft emal edən sənaye, energetika, qara metallurgiya və dağ-mədən sənaye sahələrinin inkişaf etdirilib sürətləndirilməsinə xüsusi diqqət yetirilmiş və nəticədə sənayenin strukturu onun mütərəqqi sahələr hesabına dəyişdirilmiş, orada məşğul olanların sayı əhəmiyyətli dərəcədə artmış, işçilərin ixtisas səviyyəsi yüksəlmiş, peşə-ixtisas tərkibi isə dəyişdirilib təkmilləşdirilmişdir.** Həmin illərdə respublikamızda 218 iri zavod, fabrik, istehsal sahələri yaradılmışdır. Nəticədə, 1971-1985-ci illərdə, respublikamızın sənaye məhsulunun həcmi 2,9 dəfə, o cümlədən maşınqayırma komplekslərində 5,9 dəfə, kimya və neft kimyası sahəsində 3,1 dəfə, yeyinti sənayesində 4,0 dəfədən çox artmışdır. Sənayenin quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1970-ci ildəki 12,1 faizdən 1985-ci ildə 16,4 faizə; kimya və neft-kimya, meşə-ağac emalı sənaye kompleksinin xüsusi çəkisi 7,6 faizdən 9,7 faizə; yeyinti sənaye kompleksinin xüsusi çəkisi 18,7 faizdən 28,9 faizə; sənaye məhsulunun tərkibində mütərəqqi sənaye sahələrinin məhsulunun xüsusi çəkisi 1970-ci ildəki 19,3 faizdən 1980-ci ildə 24,4 faizə, 1985-ci ildə isə 26,8 faizə çatmışdır. Bütün bunların nəticəsində 1969-1982-ci illərdə respublika sənayesində muzdla çalışmış işçilərin sayı 138,9 faiz artaraq 303,3 min nəfərdən 421,0 min nəfərə gəlib çatmışdır[7]. Sənayenin ayrı-ayrı sahələrində çalışan işçilərin sayında baş vermiş dəyişikliklər 1-ci cədvəldə öz əksini tapmışdır. 1-ci cədvəldən görünür ki, 1969-1982-ci illərdə yanacaq sənayesi istisna edilməklə sənayenin başqa sahələrində çalışmış işçilərin sayı 125,5 faizlə (meşə, ağac emalı və sellüloz kağız sənayesi) 2,3 dəfə (şüşə və çini saxsı sənayesi)

[3] Azərbaycan iqtisadiyyatı. Xaricdə yaşayan azərbaycanlılar üçün. Bakı, "Elm" nəşriyyatı, 2003, səh, 122-123.
[4] Yenə orada. Səh. 119.
[5] Şahbaz Muradov. Ulu öndər Heydər əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı, "Elm" nəşriyyatı, 2019, səh. 25.
[6] Xalqa həsr olunan illər. Bakı, "Səda" nəşriyyatı, 2003, səh, 77.
[7] Yenə orada. Səh, 133.

arasında tərəddüd etməklə artıb çoxalmışdır. Bu illər ərzində işçilərin sayında baş vermiş **ən yüksək artım səviyyəsi şüşə və çini-saxsı sənayesində** (2,3 dəfə); elektroenergetika (179,9 faiz); maşınqayırma və metal emalı (175,1 faiz); əlvan metallurgiya (160,0 faiz); unüyütmə-yarma və qarışıq yem sənayesində (150,0 faiz); **ən aşağı artım səviyyəsi isə** qara metallurgiya (106,2 faiz) meşə-ağac emalı və sellüloz-kağız (125,5 faiz); kimya və neft-kimya sənayesində (135,5 faiz) qeydə alınmışdır:

**1-ci cədvəl[8]**

**Azərbaycan Respublikası sənayesində çalışan işçilərin sayının dinamikası (1969-1982-ci illərdə, min nəfərlə)**

| | 1969-cu il | 1975-ci il | 1980-ci il | 1982-ci il | 1969-1982-ci illərdə %-lə |
|---|---|---|---|---|---|
| Bütün sənaye | 303,2 | 342,0 | 400,1 | 421,0 | 138,9 |
| O cüm: Elektroenergetika | 9,7 | 13,5 | 16,1 | 17,4 | 179,4 |
| Yanacaq sənaye | 37,7 | 30,7 | 27,1 | 25,9 | 68,4 |
| Qara metallurgiya | 9,7 | 9,1 | 10,7 | 10,3 | 106,2 |
| Əlvan metallurgiya | 5,5 | 5,4 | 8,3 | 8,8 | 160,0 |
| Kimya və neft-kimya | 22,0 | 24,8 | 29,4 | 29,9 | 135,9 |
| Maşınqayırma və metal emalı | 67,9 | 81,7 | 109,0 | 118,9 | 175,0 |
| Meşə, ağac emalı və sellüloz kağız sənayesi | 10,6 | 13,2 | 13,0 | 13,3 | 125,5 |
| Tikinti materialları sənayesi | 18,6 | 20,7 | 23,6 | 25,2 | 135,5 |
| Şüşə və çini saxsı sənayesi | 2,4 | 4,3 | 4,4 | 5,5 | 2,3 *** |
| Yüngül sənaye | 77,3 | 88,2 | 99,7 | 102,7 | 132,9 |
| Yeyinti sənayesi | 30,6 | 38,0 | 43,2 | 45,8 | 148,7 |
| Unüyütmə-yarma və qarışıq yem sənayesi | 1,8 | 1,9 | 2,2 | 2,7 | 150,0 |
| Digər sənaye sahələri | 9,2 | 10,5 | 13,2 | 14,7 | 159,8 |

**Ancaq Ulu öndər Heydər Əliyevin 1982-ci ilin axırında Moskva şəhərinə SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini və Sov. İKP MK Siyasi Bürosunun üzvü vəzifələrinə aparıldıqdan sonra**, xüsusilə də **1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş səriştəsiz adamların fəaliyyətsizliyi** üzündən 70-80-ci illərdə ölkəmizdə yaradılmış böyük iqtisadi potensial xeyli zəifləmişdir. Bundan əlavə, həmçinin 1991-ci ildə SSRİ-nin sükutu ilə əlaqədar olaraq respublikamızın öz müstəqilliyinə qovuşduğu illərin ilk dövründə vahid iqtisadi məkanın **(vahid valyuta, bank, ticarət-iqtisadi əlaqələr və maliyyə-büdcə sisteminin)** dağılması və bununla bilavasitə bağlı olan təsərrüfat subyektləri arasındakı **iqtisadi-ticarət, maliyyə və texnoloji əlaqələrin qısa zaman kəsiyində ləğv edilməsi nəticəsində onilliklər ərzində vahid iqtisadi məkanda fəaliyyət göstərən müəssisələr satış və maliyyə bazarlarını itirmək məcburiyyətində qaldı.** Müəssisələrin istehsal etdikləri məhsullar keyfiyyət və qiymət göstəricilərinə görə daxili bazardakı idxal malları ilə rəqabət apara bilmədilər. Buna görə də Respublikamızın əksəriyyət zavod və fabrikləri öz fəaliyyətlərini dayandırmaq məcburiyyətində qaldı. Bu isə öz növbəsində iş qüvvəsindən istifadə edilməsi sahəsində də bir sıra çətinliklərin yaranmasına səbəb oldu. 1991-1993-cü illərdə Azərbaycan **"Ölüm ya olum"** qarşısında qaldı. 1993-cü ilin 15 iyununda **xalqımızın tam əksəriyyətinin təkidi ilə Ulu öndərimiz Heydər Əliyev yenidən respublikamızın rəhbərliyinə gətirildikdən sonra Azərbaycanın başının üstünü almış təhlükə aradan qaldırıldı və xalqımız təhlükədən xilas oldu.** 1994-cü ilin may ayının 12-də Azərbaycanla-Ermənistan arasında atəşkəs imzalandı və ölkəmizdə ictimai-siyasi sabitlik yaradıldı. 1994-cü il sentyabr ayının 20-də məşhur **"Əsrin müqaviləsi"** imzalandı; "12" noyabr 1995-ci il tarixdə isə Ümumxalq səsvermə (referendum) yolu ilə **Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.** Bunlardan sonra 1996-cı ildən etibarən respublikamızın iqtisadiyyatı dinamik inkişaf etməyə başladı. Belə ki, 1991-1995-ci illərdə

[8] Xalqa həsr olunan illər Bakı, 2003. Səh, 91.

iqtisadi inkişafın əsas makro-iqtisadi göstəricisi olan Ümumi Daxili Məhsulun həcmi hər ildə orta hesabla 20-25 faiz, sənaye məhsullarının həcmi 15-20 faiz azaldığı halda, 1996-2000-ci illərdə Ümumi Daxili Məhsulun həcmi 40,0 faiz, sənaye məhsulunun həcmi 13,4 faiz, kənd təsərrüfatı məhsulunun həcmi isə 19,0 faiz artmışdır[9]. Bu onun nəticəsi idi ki, 1991-1995-ci illərdə respublikamızda əsas kapitala faktiki qiymətlərlə 1783,1 milyard manatlıq, 1996-2000-ci illərdə isə bundan 27,7 faiz çox, yəni 2267,4 milyard manat həcmində investisiya qoyulmuşdur. Bu investisiyaların birinci dövrdə (1991-1995-ci illər) 1023,2 milyard manatı və ya 57,8 faizi, ikinci dövrdə ((1996-2000-ci illər) isə 15847,3 milyard manatı və ya 69,6 faizi sənaye sahəsinə yönəldilmişdir[10]. Müstəqilliyimizin birinci on ili (1991-2000-ci illər) və bütünlükdə müstəqillik illərində ölkə sənayesində və onun ayrı-ayrı sahələrində muzdla çalışan işçilərin sayında baş vermiş dəyişikliklər isə 2-ci cədvəldə öz əksini tapmışdır:

**2-ci cədvəl[11]**

**Azərbaycan Respublika sənayesində və onun ayrı-ayrı sahələrində muzdla çalışan işçilərin sayının dinamikası (1991-2023-cü illərdə - min nəfərlə)**

| İllər / Sənaye sahələri | 1991 | 1995 | 2000 | 2005 | 2010 | 2020 | 2023 | 1991-1995-ci illərdə % | 1995-2000-ci illərdə % | 2000-2023-cü illərdə % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 395,5 | 304,3 | 200,2 | 193,2 | 181,8 | 2019,5 | 226,3 | 77,0 | 65,8 | 113,1 |
| O cüm: mədənçıxarma sənayesi | 18,3 | 28,8 | 33,7 | 40,8 | 36,6 | 34,6 | 33,7 | 157,4 | 117,0 | - |
| Emal sənayesi | 348,1 | 244,0 | 131,7 | 101,6 | 94,7 | 127,1 | 129,3 | 64,2 | 53,8 | 127,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 20,2 | 24,4 | 26,6 | 27,0 | 28,5 | 28,3 | 29,1 | 122,8 | 107,3 | 107,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 8,9 | 6,1 | 8,2 | 23,8 | 22,0 | 30,0 | 34,3 | 68,5 | 134,4 | 402,4 |

Həmin məlumatlardan aydın olur ki, müstəqilliyimizin ilk 5 ili ərzində (1991-1995-ci illərdə) ölkə sənayesində muzdla çalışmış işçilərin sayı 23,0 faiz azalmasına rəğmən mədənçıxarma sənayesində təqribən 1,6 dəfə (157,4 faiz); elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 122,8 faiz artdığı halda, emal sənayesində 35,8 faiz; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 31,5 faiz azalmışdır. 1995-2000-ci illərdə isə ölkə sənayesinin inkişafında əldə edilmiş müəyyən uğurların nəticəsində burada çalışan işçilərin sayının azalması surəti bir qədər azalmışdır. Belə ki, ölkə sənayesinin işçilərinin bu illərdəki azalma faizi əvvəlki illərlə müqayisədə 11,2 faiz bənd; o cümlədən emal sənayesində 10,4 faiz bənd aşağı düşmüş; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 107,7 faiz; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 134,4 faiz artmışdır. 2000-ci ildən sonrakı illərdə sənayedə və onun ayrı-ayrı sahələrində muzdla çalışan işçilərin sayı tədricən artıb çoxalmışdır. Belə ki, Ulu öndərimizin layiqli davamçısı İlham Əliyev cənabları 15 oktyabr 2003-cü ildə ölkə başçısı seçildikdən sonra atası Ulu öndərin inkişaf strategiyasına əməl edərək və onu daha da inkişaf etdirərək ölkə iqtisadiyyatında, o cümlədən də sənaye sahəsində yeni iş yerlərinin açılması siyasətini davam etdirməyə başladı. O, 2003-cu ilin prezident seçkiləri ərəfəsində seçicilərinin qarşısında çıxış edərkən söz verdi ki, prezident seçilərsə 5 il ərzində ölkədə 500 min yeni iş yerlərinin açılmasına nail olacaqdır. O, öz vədinə artıqlaması ilə əməl edərək 2003-cü ilin dördüncü rübü ilə 2008-ci ilin dördüncü rübü ərzində 766,3 min yeni iş yaradılmasına nail oldu, yəni vədindən əlavə 266,3 min və ya 1,5 dəfədən çox (153,2 faiz) yeni iş yeri yaradılmasına nail oldu[12]. Bütünlükdə götürüldükdə isə

[9] Şahbaz Muradovun adı çəkilən əsəri. səh. 125.
[10] Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, 2000, səh. 18; Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, 2015, səh. 439.
[11] Müstəqil Azərbaycan 25. ADSK. Bakı. 2016, səh. 389-390; Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2014, səh. 53-54; Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024, səh. 13-15 əsasında tərtib edilmişdir.
[12] Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2024, səh, 602-607.

2003-2023-cü illərdə ölkəmizdə 1990,6 min yeni iş yaradılmışdır ki, onun da 154,5 mini və ya cəmi 7,7 faizi sənaye sahəsinin payına düşmüşdür. Sənaye sahəsində yaradılmış həmin yeni iş yerlərinin 9,5 mini və ya 6,3 faizi mədənçıxarma sənayesinin; 70,0 mini və ya 45,3 faizi emal sənayesinin; 55,2 mini və ya 35,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizi sahəsinin; 19,5 mini və ya 12,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsinin payına düşmüşdür[13]. Nəticədə 2-ci cədvəlin məlumatlarından göründüyü kimi 2000-2023-cü illərdə ölkə sənayesində muzdla çalışan işçilərin sayı 113,1 faiz artaraq 181,8 min nəfərdən 226,3 min nəfərə, o cümlədən emal sənayesində 127,3 faiz artaraq 94,7 min nəfərdən 129,3 min nəfərə; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 107,8 faiz artaraq 26,6 min nəfərdən 29,1 min nəfərə; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 4,0 dəfədən çox (402,4 faiz) artaraq 8,2 min nəfərdən 34,3 min nəfərə gəlib çatmış; mədənçıxarma sənayesində isə sabit qalmışdır. Sənayedə və onun ayrı-ayrı sahələrində baş vermiş yuxarıda qeyd edilən dəyişikliklər onların sahə məşğulluq quruluşunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər 3-cü cədvəldə öz əksini tapmışdır. 3-cü cədvəldən görünür ki, bütünlükdə götürüldükdə sənayedə və onun ayrı-ayrı sahələrində muzdla çalışanların sayındakı fərqli dəyişikliklər orada muzdla çalışanların sahə quruluşunun bu və ya digər sahənin xeyrinə olaraq dəyişilməsinə gətirib çıxartmışdır. Belə ki, əgər bütünlükdə götürüldükdə müstəqillik illərində (1991-2023-cü illər) sənayedə muzdla çalışanların sahə quruluşu emal sənayesində muzdla məşğul olanların xüsusi çəkisinin 30,9 faiz bənd azalması hesabına digər sahələrdə xeyli artıb çoxalmışdırsa, 2000-2023-cü illərdə isə bu göstəricinin mədənçıxarma, emal, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində çalışanların xüsusi çəkisinin azalması hesabına su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində çalışanların xüsusi çəkisi 7,0 faiz bənd artaraq 4,1 faizdən 11,1 faizə yüksəlmişdir:

**3-cü cədvəl[14]**

**Azərbaycan Respublika sənayesində muzdla çalışan işçilərin sahə məşğulluq quruluşunun dinamikası (1991-2023-cü illərdə - yekuna nisbətən – faizlə)**

| İllər / Sənaye sahələri | 1991 | 1995 | 2000 | 2005 | 2010 | 2020 | 2023 | 2023-cü ildə %-lə (+) (-) | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | 1991-ci ilə nisbətən | 2000-ci ilə nisbətən |
| Bütün sənaye | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | - | - |
| O cüm: mədənçıxarma sənayesi | 4,6 | 9,5 | 16,8 | 21,1 | 20,1 | 15,5 | 14,9 | +10,3 | -1,9 |
| Emal sənayesi | 88,0 | 80,4 | 65,8 | 52,6 | 52,1 | 57,9 | 57,1 | -30,9 | -8,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 5,1 | 8,1 | 13,3 | 14,0 | 15,7 | 12,9 | 12,8 | +7,7 | -0,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 2,3 | 2,0 | 4,1 | 12,3 | 12,1 | 13,7 | 15,2 | +12,9 | +11,1 |

Sənayedə iş qüvvəsindən istifadənin vəziyyətini xarakterizə edən mühüm göstəricilərdən biri də burada muzdla çalışanların ərazi məşğulluq quruluşundan ibarətdir. Bunu 2005-2023-cü illəri əhatə edən dövrdə ölkə sənayesində və onun ayrı-ayrı sahələrində məşğul olanların respublikamızın iqtisadi rayonları arasında bölünməsi vəziyyətini özündə əks etdirən 4-cü cədvəldən görmək olur. 4-cü cədvəldən görünür ki, qeyd edilən dövrdə ölkə sənayesində muzdla çalışanların sayı 117,1 faiz artaraq 193,2 min nəfərdən 226,3 min nəfərə çatmasına rəğmən Bakı şəhərində 114,9 faiz artaraq 104,1 min nəfərdən 119,6 min nəfərə; Naxçıvan MR-da təqribən 2,5 dəfə (247,4 faiz) artaraq 3,8 min nəfərdən 9,4 min nəfərə; Abşeron-Xızıda 1,6 dəfədən çox (167,0 faiz) artaraq 12,5 min nəfərdən

[13]Yenə orada. səh. 604-606..

[14] Müstəqil Azərbaycan 25. ADSK. Bakı. 2016, səh. 389-390; Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2014, səh. 53-54; Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024, səh. 13-15 əsasında tərtib edilmişdir.

30,9 min nəfərə; Dağlıq Şirvanda 2,1 dəfədən çox (215,4 faiz) artaraq 1,3 min nəfərdən 2,8 min nəfərə; Quba-Xaçmazda 113,6 faiz artaraq 4,4 min nəfərdən 5,0 min nəfərə; Lənkəran-Astarada təqribən 2,2 dəfə (216,1 faiz) artaraq 3,1 min nəfərdən 6,9 min nəfərə; Mərkəzi Aranda da 119,0 faiz artaraq 5,8 min nəfərdən 6,9 min nəfərə; Şəki-Zaqatala təqribən 1,7 dəfə (166,7 faiz artaraq 4,5 min nəfərdən 7,5 nəfərə çatmış; Gəncə-Daşkəsən, Qarabağ; Qazax-Tovuz; Mil-Muğan və Şirvan-Salyan iqtisadi) rayonlarda isə müvafiq surətdə 14,5; 25,9; 93,6; 9,5 və 20,2 faiz azalmış, Şərqi-Zəngəzurda isə sabit qalmışdır:

**4-cü cədvəl[15]**

**Azərbaycan Respublikasının iqtisadi rayonlarında sənaye istehsalı sahəsində muzdla çalışan işçilərin sayının və ərazi quruluşunun dinamikası (2005-2023-cü illərdə)**

| | 2005 | | 2010 | | 2020 | | 2023 | | 2005-2023-cü illərdə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Muzdla işçilərin sayı (min nəfər) | Yekuna nisbətən %-lə | Muzdla işçilərin sayı (min nəfər) | Yekuna nisbətən %-lə | Muzdla işçilərin sayı (min nəfər) | Yekuna nisbətən %-lə | Muzdla işçilərin sayı (min nəfər) | Yekuna nisbətən %-lə | %-lə | Faiz bənd (+) (-) |
| **Azərbaycan Respublikası üzrə** | 193,2 | 100,0 | 181,1 | 100,0 | 217,4 | 100,0 | 226,3 | 100,0 | 117,1 | - |
| **O cüm: Bakı şəhəri** | 104,1 | 53,9 | 99,6 | 54,7 | 113,5 | 52,0 | 119,6 | 52,8 | 114,9 | -1,1 |
| **Naxçıvan MR** | 3,8 | 1,9 | 12,8 | 7,0 | 17,4 | 8,0 | 9,4 | 4,2 | 247,4 | +2,3 |
| **Abşeron-Xızı** | 18,5 | 9,5 | 18,4 | 10,1 | 26,1 | 12,0 | 30,9 | 13,5 | 167,0 | +4,0 |
| **Dağlıq-Şirvan** | 1,3 | 0,6 | 1,6 | 0,9 | 2,6 | 1,2 | 2,8 | 1,2 | 215,4 | +0,6 |
| **Gəncə-Daşkəsən** | 13,2 | 6,7 | 9,7 | 5,3 | 9,3 | 4,3 | 11,3 | 5,4 | 85,6 | -1,3 |
| **Qarabağ** | 5,4 | 2,8 | 4,4 | 2,4 | 3,9 | 1,8 | 4,0 | 1,7 | 74,1 | -1,1 |
| **Qazax-Tovuz** | 9,4 | 4,8 | 4,4 | 2,4 | 4,7 | 2,0 | 5,3 | 2,3 | 56,4 | -1,5 |
| **Quba-Xaçmaz** | 4,4 | 2,3 | 4,5 | 2,7 | 4,5 | 2,1 | 5,0 | 2,2 | 113,6 | -0,1 |
| **Lənkəran-Astara** | 3,1 | 1,6 | 3,9 | 2,1 | 6,3 | 2,9 | 6,7 | 3,0 | 216,1 | +1,4 |
| **Mərkəzi-Aran** | 5,8 | 3,0 | 3,0 | 1,6 | 7,1 | 3,3 | 6,9 | 3,0 | 119,0 | + |
| **Mil-Muğan** | 6,3 | 3,7 | 1,2 | 2,3 | 4,9 | 2,2 | 5,7 | 2,5 | 90,5 | +1,2 |
| **Şəki-Zaqatala** | 4,5 | 2,3 | 4,6 | 2,5 | 6,0 | 2,8 | 7,5 | 3,3 | 166,7 | +1,0 |
| **Şərqi-Zəngəzur** | - | - | - | - | 0,4 | 0,2 | 0,6 | 0,2 | - | - |
| **Şirvan-Salyan** | 13,4 | 6,9 | 10,7 | 5,9 | 10,5 | 4,8 | 10,7 | 4,7 | 79,8 | +2,2 |

[15] Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2014. səh. 53-54; Azərbaycan sənayesi. Statistik məcmuə, Bakı, 2015. səh. 53-54; Azərbaycan sənayesi. Statistik məcmuə, Bakı, 2024, səh. 13-15 əsasında tərtib edilmişdir.

Nəticədə ölkə sənayesində muzdla çalışanların ərazi məşğulluq quruluşunda xeyli dəyişikliklər baş vermişdir. Belə ki, 2005-ci ildə ölkə sənayesində muzdla çalışanların payı ayrı-ayrı iqtisadi rayonlar üzrə 1,6 faizlə (Lənkəran-Astara) 53,9 faiz (Bakı şəhəri) arasında, 2023-cü ildə isə 0,2 faizlə (Şərqi-Zəngəzur) 52,8 faiz (Bakı şəhəri) arasında tərəddüd edərək dəyişmişdir. Belə ki, 2005-ci ildə ölkə sənayesində muzdla çalışanların xüsusi çəkisinin (payının) **ən aşağı səviyyəsi** ilə **ən yüksək səviyyəsi** olan iqtisadi rayonlar arasındakı fərq 52,3 faiz bənd (53,9 faiz – 1,6 faiz) təşkil etmişdirsə, 2023-cü ildə bu fərq bir qədər, yəni 0,3 faiz bənd artaraq 51,6 faiz (52,8 faiz – 0,2 faiz) təşkil etmişdir. Burada diqqəti çəkən ən mühüm məqam isə ondan ibarətdir ki, əgər **2005-ci ildə** ölkə sənayesində muzdla çalışanların **əksəriyyəti, yəni 81,7 faizi cəmi 4 iqtisadi rayonun** – Bakı şəhəri ilə (53,9 faiz) Abşeron-Xızı (9,5 faiz); Gəncə-Daşkəsən (6,7 faiz) və Şirvan-Salyanın; **2023-cü ildə isə 80,8 faizi** 5 iqtisadi rayonun, yəni Bakı şəhəri ilə (52,8 faiz), Abşeron-Xızı (13,5 faiz); Naxçıvan MR (4,5 faiz); Gəncə-Daşkəsən (5,4 faiz) və Şirvan-Salyanın payına düşmüşdür. Bu isə onu deməyə əsas verir ki, uzun illərdən bəridir ki, ölkə ərazisində məhsuldar qüvvələrin, o cümlədən sənayenin yerləşdirilməsi sahəsində lazımi tarazlıq yaradılmamışdır.

Ölkə sənayesində iş qüvvəsindən istifadənin vəziyyətini səciyyələndirən göstəricilərdən biri də orada qadın əməyindən istifadənin vəziyyətindən ibarətdir. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, müxtəlif səbəblər üzündən ölkə əhalisinin 50,2 faizini[15] təşkil edən qadınlar hələ də respublika iqtisadiyyatında muzdla çalışanların 40,4 faizini[16], sənaye sahəsində muzdla çalışanların isə daha az hissəsini, yəni cəmi 23,2 faizini təşkil edir[17]. Son illərdə (2019-2023-cü illər) ölkə sənayesində və onun ayrı-ayrı sahələrində muzdla çalışanlar arasında çalışan qadınların sayında, xüsusi çəkisində və sahə məşğulluq quruluşunda baş vermiş dəyişiklikləri aşağıdakı 5-ci cədvəlin məlumatlarından

[15] Əmək bazarı. Statistik məcmuə. Bakı, 2024, səh. 18.
[16] Yenə orada. səh. 20.
[17] Yenə orada. səh. 31.

görmək olar. 5-ci cədvəldən görünür ki, son 5 il ərzində (2019-2023-cü illər) ölkə sənayesində muzdla çalışan qadınların sayı 107,8 faiz artaraq 48,8 min nəfərdən 52,6 min nəfərə çatmasına rəğmən mədənçıxarma sənayesində 13,0 faiz azalaraq 34,9 min nəfərdən 33,3 min nəfərə, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 3,1 faiz azalaraq 30,4 min nəfərdən 29,1 min nəfərə düşmüş; emal sənayesində 110,8 faiz artaraq 121,9 min nəfərə; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 113,8 faiz artaraq 30,4 min nəfərdən 33,8 min nəfərə gəlib çatmış; ölkə sənayesində muzdla çalışanlar arasındakı xüsusi çəkisi isə 0,8 faiz bənd artaraq 22,4 faizdən 23,2 faizə, o cümlədən mədənçıxarma sənayesində 1,2 faiz bənd azalaraq 13,2 faizdən 12,0 faizə; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 0,4 faiz bənd azalaraq 34,2 faizdən 33,8 faizə düşmüş; emal sənayesində 1,6 faiz bənd artaraq 25,0 faizdən 26,0 faizə; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində isə 0,1 faiz bənd artaraq 10,5 faizdən 10,6 faizə qalxmışdır:

**5-ci cədvəl[18]**

**Azərbaycan Respublika sənayesində və onun ayrı-ayrı sahələrində muzdla çalışanlar arasında qadınların sayının, xüsusi çəkisinin və sahə quruluşunun dinamikası (2019-2023-cü illərdə)**

| | 2019-cu il | | | | 2023-cü il | | | | 2019-2023-cü illərdə - % | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi muzdla çalışanların sayı (min nəfər) | O cüm: qadınların sayı (min nəfər) | Yekuna nisbətən % | Qadınların xüsusi çəkisi % | Cəmi muzdla çalışanların sayı (min nəfər) | O cüm: qadınların sayı (min nəfər) | Yekuna nisbətən % | Qadınların xüsusi çəkisi % | Cəmi muzdla çalışanların sayı | O cüm: qadınların sayı |
| Bütün sənaye | 217,4 | 48,8 | 100,0 | 22,4 | 226,3 | 52,6 | 100,0 | 23,2 | 104,1 | 107,8 |
| O cüm: mədən-çıxarma sənayesi | 34,9 | 4,6 | 9,4 | 13,2 | 33,3 | 4,0 | 7,6 | 12,0 | 96,2 | 87,0 |
| Emal sənayesi | 121,9 | 30,5 | 62,5 | 25,0 | 129,3 | 33,8 | 64,3 | 26,1 | 106,1 | 110,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 30,4 | 3,2 | 6,6 | 10,5 | 29,1 | 3,1 | 5,9 | 10,6 | 95,7 | 96,9 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 30,4 | 10,5 | 21,5 | 34,2 | 34,6 | 11,7 | 22,2 | 33,8 | 113,8 | 112,5 |

Bu göstəricilərin ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarında dəyişməsi vəziyyəti isə 6-cı cədvəldə əks olunmuşdur. 6-cı cədvəldən aydın olur ki, son 5 il ərzində (2019-2023-cü illər) ölkə sənayesində **muzdla çalışan qadınların sayının 107,8 faiz artmasına rəğmən** 9 iqtisadi rayonda (Bakı şəhəri, Abşeron-Xızı, Dağlıq-Şirvan, Gəncə-Daşkəsən, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan və Şəki-Zaqatala) 107,1 faizlə (Mərkəzi-Aran) 175,0 faiz (Dağlıq Şirvan) arasında tərəddüd etməklə artmış; 4 iqtisadi rayonda (Qarabağ, Qazax-Tovuz, Şərqi-Zəngəzur və Şirvan-Salyan) **sabit qalmış;** 1 iqtisadi rayonda, yəni Naxçıvan MR-da isə 4,4 dəfədən çox azalaraq 8,0 min nəfərdən 1,8 min nəfərə düşmüşdür.

Bütün bunlar onu göstərir ki, hələ də ölkə ərazisində istehsal sahələri, xüsusilə də sənaye müəssisələri yaradılarkən qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi sahələr arasında lazımi tarazlıq yaradılmadığından bir çox hallarda qadın əməyinin asanlıqla tətbiq edilən işlərdə də kişilər

[18] Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024, səh. 13-15 əsasında tərtib edilmişdir.

məşğul olduğundan həmin sahələrdə çalışanlar arasında qadınların xüsusi çəkisi son dərəcə aşağıdır. Bunu son 5 il ərzində (2019-2023-cü illər) respublikanın ayrı-ayrı iqtisadi rayonlarında sənaye sahəsində muzdla çalışan qadınların sayında, ölkənin iqtisadi rayonları arasında bölünməsi nisbətliyində və muzdla çalışanlar arasında xüsusi çəkisində baş vermiş dəyişiklikləri özündə əks etdirən 6-cı cədvəlin məlumatlarından aydın görmək olar:

6-cı cədvəl[19]

**Azərbaycan Respublikasının sənayesində muzdla çalışanların cins tərkibi üzrə sayının və ərazi məşğulluq quruluşunun dinamikası (2019-2023-cü illər)**

| İqtisadi rayonlar | 2019-cu il | | | | | 2023-cü il | | | | | 2019-2023-cü illərdə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Muzdla işləyənlər (min nəfər) | Yekuna nisbətən %-lə | Onlardan qadınlar | | Cəmi işçilərdən qadınlar % | Muzdla çalışanlar (min nəfər) | Yekuna nisbətən %-lə | Onlardan qadınlar | | Cəmi işləyənlərdən qadınlar % | Cəmi muzdla çalışanlar % | O cümlədən: qadınlar % | Qadınların xüsusi çəkisi faiz bənd (+) (-) |
| | | | Cəmi (min nəfər) | Yekuna nisbətən %-lə | | | | Cəmi (min nəfər) | Yekuna nisbətən %-lə | | | | |
| **Azərbaycan Respublikasında** | 217,4 | 100,0 | 48,8 | 100,0 | 22,4 | 226,3 | 100,0 | 52,6 | 100,0 | 23,2 | 104,1 | 107,8 | +0,8 |
| **Bakı şəhəri** | 113,5 | 52,2 | 26,9 | 55,1 | 23,3 | 119,6 | 52,9 | 29,2 | 55,5 | 24,4 | 105,4 | 108,5 | +1,1 |
| **Naxçıvan MR** | 17,4 | 8,0 | 4,6 | 9,4 | 26,4 | 9,4 | 4,2 | 1,8 | 3,4 | 19,1 | 54,0 | 39,1 | -7,3 |
| **Abşeron-Xızı** | 26,1 | 12,0 | 6,5 | 13,3 | 24,9 | 30,9 | 13,6 | 8,2 | 15,6 | 26,5 | 118,4 | 126,3 | +1,6 |
| **Dağlıq-Şirvan** | 2,6 | 1,2 | 0,4 | 0,8 | 15,4 | 2,8 | 1,2 | 0,7 | 1,3 | 25,0 | 107,7 | 175,0 | +9,6 |
| **Gəncə-Daşkəsən** | 9,3 | 4,3 | 1,6 | 3,3 | 17,2 | 11,3 | 5,0 | 2,3 | 4,4 | 20,4 | 121,5 | 143,7 | +3,2 |
| **Qarabağ** | 3,9 | 1,8 | 0,6 | 1,2 | 15,4 | 4,0 | 1,8 | 0,6 | 1,1 | 15,0 | 102,5 | + | -0,1 |
| **Qazax-Tovuz** | 4,7 | 2,2 | 0,7 | 1,4 | 14,9 | 5,3 | 2,3 | 0,7 | 1,3 | 13,2 | 112,8 | + | -1,7 |
| **Quba-Xaçmaz** | 4,5 | 2,1 | 0,9 | 1,8 | 20,0 | 5,0 | 2,2 | 1,3 | 2,5 | 26,0 | 111,1 | 144,4 | +6,0 |
| **Lənkəran-Astara** | 6,3 | 2,9 | 1,2 | 2,4 | 19,1 | 6,7 | 3,0 | 1,5 | 2,9 | 22,4 | 106,3 | 125,0 | +3,0 |
| **Mərkəzi-Aran** | 7,1 | 3,3 | 1,4 | 2,9 | 19,7 | 6,9 | 3,1 | 1,5 | 2,9 | 21,7 | 97,1 | 107,1 | +2,0 |
| **Mil-Muğan** | 4,9 | 2,2 | 0,5 | 1,0 | 10,2 | 5,7 | 2,5 | 0,7 | 1,3 | 12,3 | 116,3 | 140,0 | +2,0 |
| **Şəki-Zaqatala** | 6,0 | 2,7 | 1,6 | 3,3 | 26,7 | 7,3 | 3,2 | 2,3 | 4,4 | 31,5 | 121,7 | 143,7 | +4,8 |
| **Şərqi-Zəngəzur** | 0,4 | 0,2 | 0,1 | 0,2 | 25,0 | 0,6 | 0,3 | 0,1 | 0,2 | 16,7 | 150,0 | + | -8,3 |
| **Şirvan-Salyan** | 10,5 | 4,8 | 1,7 | 3,4 | 16,2 | 10,7 | 4,7 | 1,7 | 3,2 | 15,9 | 101,9 | + | -0,3 |

[19] Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024. səh. 16-21 əsasında tərtib edilmişdir.

Əvvəldəki 6-cı cədvəldən görünür ki, son 5 il (2019-2023-cü illər) ərzində respublikamızda və onun əksəriyyət iqtisadi rayonlarında sənayedə muzdla çalışan bütün işçilərin sayına nisbətən qadınların sayı və onların xüsusi çəkisi daha çox artmasına baxmayaraq bəzi iqtisadi rayonlarda bu göstəricilər sabit qalmış, digərlərində isə xeyli azalmışdır. Eyni zamanda 2019-cu ildə olduğuna nisbətən 2023-cü ildə sənayedə muzdla çalışan bütün işçilərə nisbətən qadınların daha çox hissəsi, yəni 78,5 faizi 6 iqtisadi rayonda (Bakı şəhəri, Abşeron-Xızı, Gəncə-Daşkəsən, Şəki-Zaqatala; Naxçıvan MR; Şirvan-Salyan), cəmi 21,5 faizi isə qalan 8 iqtisadi rayonda (Dağlıq-Şirvan, Qarabağ, Qazax-Tovuz; Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şərqi-Zəngəzur) cəmlənmişdir.

Burada diqqəti çəkən əsas məsələlərdən biri də ondan ibarətdir ki, 2023-cü ilin rəsmi məlumatlarına əsasən ölkə sənayesində muzdla çalışmış 226,3 min nəfərin 150,5 min nəfəri və ya 66,5 faizi; o cümlədən 52,6 min nəfər qadının 37,4 min nəfəri və ya 71,1 faizi cəmi iki ərazinin, yəni respublikada yaşamış 10108,8 min nəfər əhalinin 3221,4 min nəfərinin və ya 31,6 faizinin; o cümlədən 5113,6 min nəfər qadının 1635,5 min nəfərinin və ya 31,4 nəfərinin yaşadığı Bakı şəhəri ilə Abşeron-Xızı iqtisadi rayonlarının payına düşmüşdür[19].

Bütün bunlar bir daha onu göstərir ki, ölkə ərazisində sənaye müəssisələri yaradılıb inkişaf etdirilərkən həmin ərazilərin malik olduğu əmək ehtiyatları, o cümlədən qadın əmək ehtiyatlarının kəmiyyət-keyfiyyət göstəriciləri, həm də onların ictimai əmək dairəsinə cəlb edilməsi imkanları və zərurəti nəzərə alınmamışdır. Bunu ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrinin respublikanın iqtisadi rayonları arasında bölünməsi vəziyyətində baş vermiş dəyişiklikləri özündə əks etdirən 7-ci cədvəlin məlumatlarından da aydın görmək olar. 7-ci cədvəlin məlumatlarından görünür ki, 2019-2023-cü illəri əhatə edən dövrdə ölkəmizdə fəaliyyət göstərmiş sənaye

[19] Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2024. səh. 80-81, 97.

müəssisələrinin sayı respublika üzrə 148,0 faiz artmasına rəğmən ayrı-ayrı iqtisadi rayonlarda 109,3 faizlə (Gəncə-Daşkəsən) 178,6 faiz (Şərqi-Zəngəzur) arasında artıb çoxalmasına baxmayaraq 2023-cü ildə də həmin sənaye müəssisələrinin əksəriyyəti Bakı şəhəri ilə Abşeron-Xızı iqtisadi rayonunun payına düşmüşdür. Daha doğrusu bu illər ərzində Bakı şəhəri ilə Abşeron-Xızı iqtisadi rayonunun ərazisində fəaliyyət göstərən sənaye müəssisələrinin ölkə üzrə olan sənaye müəssisələrinin sayı arasındakı xüsusi çəkisi 4,9 faiz bənd artaraq 63,1 faizdən 68,0 faizə yüksəlmişdir.

**7-ci cədvəl[20]**

**Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrinin iqtisadi rayonlar arasında bölünməsində baş vermiş dəyişikliklər (2019-2023-cü illər)**

| İqtisadi rayonlar | 2019-cu il | | 2023-cü il | | 2019-2023-cü illərdə % | |
|---|---|---|---|---|---|---|
| | Müəssisələrin sayı (vahid) | Yekuna nisbətən % | Müəssisələrin sayı (vahid) | Yekuna nisbətən % | Müəssisələrin sayı | Xüsusi çəkisi faiz bənd (+) (-) |
| **Azərbaycan Respublikası** | 3169 | 100,0 | 4691 | 100,0 | 148,0 | - |
| **Bakı şəhəri** | 1671 | 52,7 | 2687 | 57,3 | 166,0 | +4,6 faiz bənd |
| **Naxçıvan MR** | 106 | 3,3 | 116 | 2,5 | 109,4 | -0,8 faiz bənd |
| **Abşeron-Xızı** | 328 | 10,4 | 502 | 10,7 | 153,0 | +0,3 faiz bənd |
| **Dağlıq Şirvan** | 52 | 1,6 | 64 | 1,4 | 123,1 | -0,2 faiz bənd |
| **Gəncə-Daşkəsən** | 183 | 5,8 | 200 | 4,3 | 109,3 | -1,5 faiz bənd |
| **Qarabağ** | 74 | 2,3 | 117 | 2,5 | 158,1 | +0,2 faiz bənd |
| **Qazax-Tovuz** | 90 | 2,9 | 119 | 2,5 | 132,2 | -0,4 faiz bənd |
| **Quba-Xaçmaz** | 104 | 3,3 | 137 | 3,0 | 131,7 | -0,3 faiz bənd |
| **Lənkəran-Astara** | 102 | 3,2 | 141 | 3,0 | 138,2 | -1,2 faiz bənd |
| **Mərkəzi Aran** | 143 | 4,5 | 170 | 3,5 | 130,8 | -0,9 faiz bənd |
| **Mil-Muğan** | 74 | 2,3 | 94 | 2,0 | 127,0 | -1,3 faiz bənd |
| **Şəki-Zaqatala** | 135 | 4,3 | 198 | 4,2 | 146,7 | -0,1 faiz bənd |
| **Şərqi Zəngəzur** | 14 | 0,4 | 25 | 0,5 | 178,6 | +0,1 faiz bənd |
| **Şirvan-Salyan** | 93 | 3,0 | 116 | 2,5 | 124,7 | -0,5 faiz bənd |

Bütün bunlar onu göstərir ki, hələlik ölkəmizin əksəriyyət iqtisadi rayonlarında sənayenin inkişafı lazımi səviyyədə deyildir. Ona görə də ölkəmizin bütün regionlarının tarazlı inkişafının təmin edilməsi müvafiq dövlət və hökumət orqanlarının, habelə iş adamlarının, sahibkarların diqqət mərkəzində olmalıdır. Onu da nəzərə almaq lazımdır ki, hazırda ölkənin ayrı-ayrı sənaye sahələrində muzdla çalışanların xeyli bir hissəsi də müxtəlif səbəblərdən işdən çıxıb başqa sahələrdə işləməyə gedir və əvəzində həmin sahələrdə iş təcrübəsi az olan işçilər işləməyə gəlirlər ki, bu da heç şübhəsiz ki, həmin sahələrdə görülən işlərin və istehsal olunmuş məhsulların həcminə və keyfiyyətinə mənfi təsir göstərməmiş deyildir. Belə ki, əgər 2019-cuildə sənaye sahəsində 35,2 min nəfər, 2023-cü ildə isə 67,1 min nəfər, yəni 1,9 dəfədən çox (190,1 faiz) adam işə qəbul edilmişdirsə, 2019-cu ildə sənaye sahəsindən 53,0 min, 2023-cü ildə isə 68,3 min nəfər və ya 2019-cu ilə nisbətən 2023-cü ildə işə qəbul edilənlərdən 128,8 faiz çox adam işdən çıxmışdır. Başqa sözlə desək 2019-2023-cü illərdə ölkə sənayesində işə qəbul edilənlərin sayı işdən çıxanların sayını 16,6 min nəfər və ya 2,1 dəfə üstələmişdir[21]. 2023-cü ildə ölkə sənayesində işdən çıxmış 68,3 min nəfərin 50,1 min nəfəri və ya 73,3 faizi öz xahişi ilə; 1,0 min nəfəri və ya 1,5 faizi işçilərin sayının və ya ştatların ixtisarı ilə əlaqədar işdən çıxanların, 17,2 min nəfəri və ya 25,2 faizi isə digər səbəblərdən işdən çıxanların payına düşmüşdür[22]. Bu göstəricilər sənayenin ayrı-ayrı sahələrində isə fərqli olaraq özünü təzahür

[20]Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı,. 2024. Səh. 129-130.
[21] Əmək bazarı. Statistik məcmuə. Bakı, 2024. səh. 28, 36-37.
[22] Yenə orada. səh. 38.

etdirir. Belə ki, işdən çıxanların mədənçıxarma sənayesində 73,2 faizi; emal sənayesində 74,1 faizi; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 12,6 faizi; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 89,5 faizi öz xahişləri ilə işdən çıxanların; müvafiq surətdə emal sənayesində - 1,4; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 2,0; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 1,4 faizi işçilərin sayının və ya ştatların ixtisar edilməsinin; mədənçıxarma sənayesində - 26,0; emal sənayesində - 24,5; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında – 45,4; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 9,1 faizi digər səbəblərdən işdən çıxanların payına düşmüşdür[23]. Bu rəqəmlərdən aydın olur ki, hazırda ölkənin sənaye sahəsində işdən çıxanların tam əksəriyyəti öz xahişləri ilə işdən çıxanların payına düşür. Öz xahişləri ilə işdən çıxma səbəbləri həddindən çoxdur. Bunlara hər şeydən əvvəl əməkdaşların əmək şəraitinin durumu, işçilərə ödənilən əmək haqqının onların həyat səviyyəsinin təmin edilməsi ilə uyğun gəlib-gəlməməsi, işlədikləri kollektivin əməkdaşları arasındakı qarşılıqlı anlaşmanın vəziyyəti, müdiriyyətlə aralarındakı münasibətlərin müsbət və ya mənfi xarakter daşıyıb-daşımaması halları, iş yerlərinin işçilərinin yaşayış yerləri arasındakı məsafənin uzaq və yaxın olub-olmaması və sair səbəblər daxildir. Rəsmi statistik məlumatlara əsasən hazırda ölkə sənayesində muzdla çalışanların 72,4 faizinin [24] çalışdığı emal sənayesi ilə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrində işçilərə ödənilən orta aylıq nominal əmək haqqının məbləği orta ölkə səviyyəsindən xeyli aşağıdır. Belə ki, əgər 2023-cü ildə ölkə iqtisadiyyatında muzdla çalışanların orta aylıq nominal əmək haqqının məbləği 939,9 manat, o cümlədən dövlət sektorunda 904,1 manat, qeyri-dövlət sektorunda 966,1 manat təşkil etmişdirsə emal sənayesi ilə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrində orta hesabla 776,2 manat olub orta ölkə səviyyəsinin 88,3 faizini təşkil edir[25]. Bu sahələrdə muzdla çalışan qadınların orta aylıq nominal əmək haqqının məbləği isə həmin sahələrdə çalışan kişilərin əmək haqqına nisbətən xeyli aşağıdır. Belə ki, qeyd edilən dövrdə emal sənayesində muzdla çalışan kişilərin orta aylıq nominal əmək haqlarının məbləği 933,2 manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 777,9 manat təşkil etmişdirsə qadınların əmək haqları müvafiq surətdə 583,0 və 584,3 manat olub kişilərin əmək haqlarının cəmi 62,5 və 75,1 faizini təşkil etmişdir[26].

Məlumdur ki, hər bir sahədə, o cümlədən də sənaye sahəsində iş qüvvəsinin sabitliyinin təmin edilməsinin, daha doğrusu iş qüvvəsi axıcılığının qarşısının alınmasının ən mühüm amillərindən biri də həmin sahədə yaradılmış əmək şəraitindən ibarətdir. Normal, insan sağlamlığına ziyan vurmayan, yaxşı təchiz edilmiş iş yerlərinin mövcudluğu insanları kollektivə bağlayan əsas amillərdən biri hesab edilir. Əksinə, əlverişsiz, sanitar-gigiyena normalarına cavab verməyən iş yerləri, iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan, əməyin təhlükəsizliyi tələblərinə uyğun olmayan iş yerlərində çalışanlar ilk fürsət yarandığı halda iş yerini tərk etmək məcburiyyətində qalır. Rəsmi statistik məlumatlara əsasən 2023-cü ildə ölkə sənayesində işləyənlərin 7,2 faizi, o cümlədən mədənçıxarma sənayesində - 24,6 faizi; emal sənayesində 4,7 faizi; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində - 4,8; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 2,9 faizi sanitar-gigiyena normalarına uyğun olmayan əmək şəraitində işləyənlərdir[27].

Hal-hazırda həmin əmək şəraitdə işləyənlərin 50,0 faizi mədənçıxarma sənayesinin; 37,6 faizi emal sənayesinin; 8,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının; 3,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində çalışanların payına düşür. Nəzərə alsaq ki, hazırda ölkə sənayesində sanitar-gigiyena normalarına uyğun olmayan əmək şəraitində çalışan-ların 13,6 faizini, o cümlədən mədənçıxarma sənayesində 7,0 faizini, emal sənayesində - 21,4 faizi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 11,5 faizi; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 23,9 faizi hələ də qadınlardır,

[23] Əmək bazarı. Statistik məcmuə. Bakı, 2024. səh. 38.
[24] Yenə orada.
[25] Yenə orada. səh. 61, 67.
[26] Yenə orada. səh. 67-68.
[27] Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024. səh. 13-15 və əmək bazarı. Statistik məcmuə. Bakı, 2024, səh. 50.

problemin həllinin nə qədər vacib olduğu bir daha öz təsdiqini tapır[28].

**Metodologiya:** Tədqiqat işində müqayisəli təhlil, sənaye sahələri üzrə statistik məlumatların analitik təhlili, statistik ümumiləşdirilmə üsullarından istifadə olunmuşdur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Müstəqillik illərinin (1991-2023-cü illər) ayrı-ayrı mərhələlərində ölkə ərazisində sənayenin; onun qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi sahələrinin inkişafı, yerləşdirilməsi və quruluşunda baş vermiş mənfi və müsbət dəyişikliklər həmin sahələrdə muzdla çalışan işçilərin əməyindən istifadə edilməsində, onların sahə, ərazi və cinslər üzrə məşğulluq quruluşunda da müvafiq mənfi və müsbət dəyişikliklərə səbəb olmuşdur. Bütün bunlar isə öz növbəsində sənayedə iş qüvvəsindən lazımı səviyyədə səmərəli istifadə edilməsinə imkan verməmiş və həmin sahələrdən iş qüvvəsi axıcılığına şərait yaratmışdır. Təsadüfi deyildir ki, hazırda bütünlükdə ölkə sənayesində və onun ayrı-ayrı sahələrində il ərzində işdən çıxanların sayı işə qəbul edilənlərin sayını üstələməklə bir sıra mənfi sosial-iqtisadi nəticələrə gətirib çıxarır. Hazırda ölkə sənayesində, xüsusilə də emal sənayesi ilə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində muzdla çalışanların orta aylıq nominal əmək haqlarının məbləği orta ölkə səviyyəsindən, qadınların orta aylıq əmək haqlarının məbləği isə kişilərin orta aylıq nominal əmək haqlarının məbləğinə nisbətən xeyli azdır. Sənayedə və onun mühüm sahələrində işçilərin əmək şəraitində də müəyyən çatışmazlıqlar, sanitar-gigiyena tələblərinə uyğun gəlməyən əl əməyinə əsaslanan və işçilərin, xüsusilə də qadınların sağlamlığına mənfi təsir göstərən fəaliyyət növləri qalmaqdadır və həmin sahələrdə müəyyən həcmdə qadın əməyindən də istifadə olunur. İşdən çıxanların 70-75 faizə qədəri isə öz xahişləri ilə işdən çıxanların payına düşür ki, bu da müxtəlif sosial-iqtisadi, mənəvi və psixoloji amillərlə şərtlənir. Bütün bu deyilən nöqsan və çətinliklərin aradan qaldırılması ölkə ərazisində sənayenin, xüsusilə də qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi sahələrin həmin ərazilərdə mövcud olan əmək ehtiyatlarının cins tərkibi, onların təhsil, peşə-ixtisas quruluşu və mobillik səviyyəsi nəzərə alınaraq inkişaf etdirilib yerləşdirilməsini; sənaye sahəsində əmək şəraitinin sağlamlaşdırılmasını, həmin sənaye sahələrində əməyin təşkili və stimullaşdırılmasının yaxşılaşdırılması ilə bağlı kompleks sosial-iqtisadi tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Sənaye və onun ayrı-ayrı sahələrində məşğul olanların təhsil və peşə ixtisas quruluşuna dair rəsmi statistik məlumatlar olmadığından həmin sahələrdə məşğul olanların əsil keyfiyyət tərkibi və quruluşunu aşkara çıxarmasına və bu sahədə lazımı səmərəli təkliflər işlənib hazırlanmasına imkan vermir. Fikrimizcə Dövlət Statistika Komitəsi bundan nəticə çıxarmalı və həmin məlumatları nəşr etdirdiyi statistik məcmuələrdə çap etdirməli məqsədəuyğun olardı.

### İstifadə olunmuş ədəbiyyat / *References*

1. Azərbaycan Milli Hesabları. Statistik məcmuə. Bakı, 2024,
2. Azərbaycan iqtisadiyyatı. Xaricdə yaşayan azərbaycanlılar üçün. Bakı, “Elm” nəşriyyatı, 2003, səh,122-123.
3. Şahbaz Muradov. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı, “Elm” nəşriyyatı, 2019, səh.25.
4. Xalqa həsr olunan illər. Bakı, “Səda” nəşriyyatı, 2003, səh.77.
5. Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, 2000, səh.18; Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, 2015, səh.439.
6. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2014, səh. 53-54; Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024, səh. 13-15 əsasında tərtib edilmişdir.
7. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2024, səh, 602-607.
8. Müstəqil Azərbaycan 25. ADSK. Bakı. 2016, səh. 389-390;
9. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2014. səh.53-54; Azərbaycan sənayesi. Statistik məcmuə, Bakı, 2015. səh.53-54;

[28] Əmək bazarı. Statistik məcmuə. Bakı, 2024, səh. 60-63.

10. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2024,
11. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024, səh.13-15 əsasında tərtib edilmişdir.
12. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2024
13. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2024. səh.13-15 və əmək bazarı. Statistik məcmuə. Bakı, 2024.

## Анализ и оценка отраслевой и территориальной структуры занятости труда в промышленности Азербайджанской Республики

**Ниджат Мурадлы**
Институт экономики Министерства науки и образования Азербайджанской Республики
https://orcid.org/0009-000903599-1880

**Резюме:** В статье анализируются и обобщаются официальные статистические данные, анализируются и оцениваются изменения численности занятых в сфере промышленного производства, гендерный состав, отраслевая и территориальная структура занятости в Азербайджанской Республике в период с 70-х по 80-е годы прошлого века (1969-2023 гг.), особенно в годы независимости (1991-2023 гг.), а также факторы, на них влияющие, а также даются предложения и рекомендации по эффективному использованию рабочей силы в промышленности.

**Ключевые слова:** Население, рабочая сила, занятость, безработица, занятое население, безработное население, отраслевая структура занятости, территориальная структура занятости, гендерный состав занятых, инвестиции, капиталовложения, квалифицированная рабочая сила, виды экономической деятельности, инновации, инновационное развитие.